# FHN-in təşkil etdiyi III Beynəlxalq yarış və IV Ümumrespublika birinciliyi başa çatmışdır









Qəbələ şəhərində 6 iyul 2015-ci il tarixində Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, UNİCEF-in Bakı ofisinin, Təhsil, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə FHN-in yaradılmasının 10 illiyinə həsr edilmiş "Gənc xilasedici" III Beynəlxalq yarışına və "Gənc xilasedici və yanğınsöndürən" IV Ümumrespublika birinciliyinə yekun vurulmuşdur.

«Yeddi gözəl» hotelində təşkil olunan tədbirdə Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov, təhsil naziri Mikayıl Cabbarov və gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov iştirak etmişlər.

Əvvəlcə nazir Kəmaləddin Heydərov yarışın keçirildiyi ərazidə komandaların üzvləri ilə görüşərək, onların sıra hazırlığı, geyimi fiziki və taktiki hazırlığı və qidalanması üçün yaradılan şəraitlə tanış olub, xilasedici və yanğından mühafizə komandalarının fövqəladə hallara hazırlıq vəziyyəti, onların təlimləri, müxtəlif texnikalardan istifadə etmək bacarıqları ilə maraqlanıb.

Sonra komandalar şərti olraq hoteldə baş verən yanğının söndürülməsi, köməksiz vəziyyətdə qalan insanların, göldə boğulmaq təhlükəsi ilə üzləşən uşağın xilas edilməsi, dərin quyuya düşən adamın çıxarılması əməliyyatını uğurla başa vurublar. Sonra gənc xilasedici və yanğınsöndürənlər hündür binanın fasadına dırmanaraq ölkəmizin üçrəngli bayrağını dalğalandırıb, gənc boksçu və taekvondaoçular isə döşək üzərində bacarıqlarını nümayiş etdiriblər.

Tədbirdə nazirlər Kəmaləddin Heydərov və Mikayıl Cabbarovun rəhbərliyi ilə Qəbələ Mədəniyyət Mərkəzində "dəyirmi masa" keçirilmişdir. Qeyd olunmuşdur ki, belə yarışların keçirilməsi gənclərin fövqəladə hallara qarşı mübarizədə təcrübə əldə etmələrinə geniş imkanlar açacaqdır. Nazirlər "dəyirmi masa" iştirakçılarının suallarını cavablandırmışlar. Yarış iştirakçısı olan türkiyəli, rusiyalı, qazaxıstanlı, gürcüstanlı, moldovalı, belaruslu gənc xilasedicilər bu cür yüksək səviyyəli tədbirin keçirildiyi üçün Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə minnətdarlıq etmişlər.

Yarışda iştirak edən komandaların özlərinin milli rəqs və mahnılarını ifa etmələri mərasimə xüsusi rəng qatmışdır.

Qonaq ölkələrdən Gürcüstan komandasının öz milli rəqsini ifa etməsi mərasimə xüsusi rəng qatmışdır.

Sonda nazirlər Kəmaləddin Heydərov, Mikayıl Cabbarov, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov qalib komandalara fəxri fərman və qiymətli hədiyyələr təqdim etmişlər.

Qeyd edək ki, beynəlxalq yarışda birinci yeri Rusiya Federasiyası, ikinci yeri Azərbaycan, üçüncü yeri isə Belarus komandaları tutmuşlar. Ümumrespublika birinciliyində isə birinci yerə Siyəzən rayonunun, ikinci yerə Bakı şəhəri, Nizami rayonu, 220 nömrəli məktəbin, üçüncü yerə İsmayıllı rayonunun komandaları çıxmışlar.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# Azərbaycan milli mətbuatının 140 illiyi ilə əlaqədar Qəbələdə regional konfrans

**(Əvvəli 2-ci səhifədə).**

Prezident Administrasiyasının rəsmisi daha sonra suverenlik şəraitində insan hüquq və azadlıqlarının təmin edilməsi prosesində azad jurnalistikanın layiqli yerini tutması, medianın demokratik cəmiyyət quruculuğunda rolunun, yüksəldilməsi üçün dövlətin həyata keçirdiyi məqsədyönlü, sistemli siyasətin mahiyyətini açıqladı. Ərəstun Mehdiyev medianın vətəndaşlıq mövqeyinin üstün təmayülə çevrilməsi ilə bağlı çağırışların dövlət tərəfindən dəstəkləndiyini, jurnalistlərin peşə fəaliyyətini maneəsiz və yüksək səviyyədə həyata keçirilməsi üsün əlverişli şərait yaradılması üçün davamlı işlər görüldüyünü də diqqətə çatdırdı..

Çıxışının sonunda Ərəstun Mehdiyev media təmsilçilərinin çətin və şərəfli əməyinin dövlətimiz tərəfindən həmişə yüksək qiymətləndirildiyini vurğuladı, indiki yubileydə də səmərəli fəaliyyəti ilə seçilən yazarların təltif olunacağını bildirdi, jurnalistləri əlamətdar yubiley münasibətilə səmimi təbrik etdi.

Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru, Vüqar Səfərli müstəqill medianın normal fəaliyyətinin dəstəklənməsi, jurnalistlərin sosial problemlərinin həlli ilə bağlı son illərdə həyata keçirilən KİV-ə dövlət dəstəyi konsepsiyasının uğurla gerçəkləşdirdiyini bildirdi, bu siyasətin davamlı olduğunu və jurnalistikamızın tarixi ənənələr üzərində çağdaş inkişafını təmin etdiyini diqqətə çatdırdı.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, Yeni Azərbaycan qəzetinin redaktoru Hikmət Baba oğlu və başqaları çıxış edərək milli mətbuatımızın keçib gəldiyi 140 illik yolun başlıca səciyyəsinin xalqımızı sivil inkişaf yoluna çıxarmaqdan, quruculuq və tərəqqi prosesinin önündə getməkdən ibarət olduğunu söylədilər, ölkəmizdə azad, demokratik jurnalistikanın inkişafı, medianın özünütənzimləmə mexanizmi relsinə keçirilməsi ilə bağlı reallaşdırılmış tədbirlərin uğurları barədə geniş məlumat verdilər.

Yubiley tədbirində çıxış edən bölgə icra hakimiyyətlərinin məsul işçiləri və bölgə mətbuatının təmçilçiləri son illərdə yerli medianın problemlərinin həlli istiqamətində təsirli tədbirlərin səmərə verdiyini qeyd etdilər, regional inkişaf proqramlarının uğurla həyata keçirilməsində yerli mətbuatın qarşısında duran vəzifələrdən söz açdılar.

Yubiley toplantısında iştirakçılar tərəfindən Azərbaycan milli mətbuatının yaranmasının 140 illiyini ölkənin ictimai-mədəni həyatının əlamətdar hadisəsi kimi dəyərləndirdilər, bu önəmli tarixin öncül səhifələrinə nəzər salındı, çağdaş jurnalistikanın vətəndaşlıq mövqeyinin yüksəldilməsi ilə bağlı məsələlər diqqət mərkəzində oldu.

Yubiley konfransına yekun vuran Prezident Administrasiyasının rəsmisi Ərəstun Mehdiyev bundan sonra mətbuatın qarşısında duran vəzifələrdən, regionların inkişafı sahəsində əldə olunan uğurların informasiya təminatından söhbət açdı.

**Aslan CƏLİLOV.**